**AZƏRBAYCAN RESPUBLİKASININ TARİF (QİYMƏT) ŞURASI**

**QƏRAR № 8**

**Bakı şəhəri, 30 iyun 2021-ci il**

# Təbii qazın ölkədaxili tariflərinin tənzimlənməsi barədə

Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 26 dekabr tarixli 341 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Tarif (qiymət) Şurası haqqında Əsasnamə"yə, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 30 dekabr tarixli 247 nömrəli Qərarı ilə təsdiq edilmiş "Dövlət tənzimlənməsi tətbiq olunan tariflərin (qiymətlərin) formalaşması və tətbiqi üzərində dövlət nəzarətinin təmin edilməsi Qaydaları"na uyğun olaraq və SOCAR-ın müraciətini nəzərə alaraq Azərbaycan Respublikasının Tarif (qiymət) Şurası **QƏRARA ALIR:**

1. Təbii qazın ölkədaxili tarifləri təsdiq edilsin (əlavə olunur).
2. Bu qərarın cədvəl bölməsinin 5-ci, 6-cı və 7-ci sətirləri üzrə tariflərə təbii qazın nəqli ilə bağlı xərclər daxildir.
3. Bu qərarın cədvəl bölməsinin 6.1.1-ci, 6.1.2-ci və 6.1.3-cü sətirlərində illik istehlak həcmi təbii qazın bir təqvim ili ərzindəki istehlak həcmidir.
4. Bu qərarda əhali istehlakçı qrupuna təbii qazı şəxsi tələbatını ödəmək məqsədi ilə istifadə edən məişət abonentləri aiddir.
5. Azərbaycan Respublikası Tarif (qiymət) Şurasının "Təbii qazın ölkədaxili tariflərinin tənzimlənməsi barədə" 2016-cı il 28 noyabr tarixli 18 nömrəli Qərarı bu qərar qüvvəyə mindiyi tarixdən ləğv edilsin.
6. 01.01.2021-ci il tarixindən 01.07.2021-ci il tarixinədək istehlak olunmuş təbii qazın dəyəri bu qərardan əvvəl qüvvədə olmuş illik istehlak həcmləri və tariflərlə hesablansın.
7. Bu qərar 2021-ci il 1 iyul tarixindən qüvvəyə minir.

**Azərbaycan Respublikası**
**Tarif (qiymət) Şurasının sədri** **Mikayıl Cabbarov**

https://www.tjnfctag.com/rfid-oem/

*Azərbaycan Respublikası*
*Tarif (qiymət) Şurasının*
*2021-ci il 30 iyun tarixli*
*8 nömrəli qərarı ilə*
*təsdiq edilmişdir*

## Təbii qazın ölkədaxili tarifləri

| **№** | **Xidmətlərin adı** | **Tariflər** (ƏDV ilə, manat/min $m^3$) |
|---|---|---|
| **I** | **II** | **III** |
| 1. | Təbii qazın emalı | 5,5 |
| 2. | Təbii qazın nəqli | 5,3 |
| 3. | Təbii qazın yeraltı qaz anbarlarına vurulması və götürülməsi | |
| 3.1. | Təbii qazın yeraltı qaz anbarlarına vurulması | 8,25 |
| 3.2. | Təbii qazın yeraltı qaz anbarlarından götürülməsi | 8,25 |
| 4. | Təbii qazın istehsalçılardan satın alınması | 75,0 |
| 5. | Təbii qazın qaz paylayıcılarına topdansatışı | 110,0 |
| 6. | Təbii qazın pərakəndə satışı | |
| 6.1. | Əhali | |
| 6.1.1. | illik istehlak həcminin 1200 $m^3$ -dək (1200 $m^3$ daxil) olan hissəsi üçün | 100,0 |
| 6.1.2. | illik istehlak həcminin 1200 - 2500 $m^3$ olan hissəsi üçün | 200,0 |
| 6.1.3. | illik istehlak həcminin 2500 $m^3$ -dən çox olan hissəsi üçün | 250,0 |
| 6.2. | Qeyri-əhali | |
| 6.2.1. | Sənaye və kənd təsərrüfatı sahələri | 200,0 |
| 6.2.2. | Çoxmənzilli yaşayış binalarının mərkəzi isitmə və isti su ilə təchiz edilməsi məqsədilə təşkilati-hüquqi formasından asılı olmayaraq hüquqi və fiziki şəxslər, "Azəristiliktəchizat" Açıq Səhmdar Cəmiyyəti və sıxılmış təbii qazın (CNG) satışını həyata keçirən qazdoldurma məntəqələri | 130,0 |
| 6.2.3. | Digər sahələr | 250,0 |
| 7. | Magistral qaz kəmərlərinə birbaşa qoşulmaqla istehsal məqsədləri üçün təbii qaz istehlak edən elektrik enerjisi istehsalı müəssisələrinə təbii qazın satışı (aylıq istehlakı 10 milyon $m^3$-dən az olmamaq şərti ilə) | 130,0 |

https://www.tjnfctag.com/rfid-oem/